# Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 13 iyul 2025-ci il tarixində *dt* və *tc* altqruplarının hər ikisini seçən abituriyentlər üçün 3-cü ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında coğrafiya fənnindən istifadə olunan test tapşırıqlarının izahı

## Coğrafiya

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

**1.** Mənbəyi ilə mənsəbi arasındakı havanın temperatur fərqi 24ºC olan çayın miqyası 1: 5 000 000 olan xəritədə uzunluğu 8 sm-dir. Çayın orta meyilliyini müəyyən edin (m/km).

A) 4,2 B) 2,5 C) 10 D) 8 E) 0,7

*Mövzu:* Quru suları
***Sinif:*** 10
***İzah:*** 1) Çayın mənbə və mənsəbi arasındakı temperatur fərqi 24ºC olduqda çayın düşməsi aşağıdakı kimi hesablanır:
1000 m——6 ºC
x ————24 ºC
x=4000 m (çayın düşməsi)
2) Miqyasa əsasən çayın uzunluğunu müəyyən etmək olar.
Çayın uzunluğu 50x8=400 km
Çayın meyilliyi 4000/400=10 m/km
***Doğru cavab:*** 10

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

**2.** Xəritə-sxemdə rəqəmlərlə verilən iqtisadi rayonların fərqli xüsusiyyətlərini müəyyən edin.
1. Filiz hasilatında payı var.
2. Neft-qaz sənayesi inkişaf etmişdir.
3. Elektroenergetika müəssisələrinə malikdir.
4. Yüngül və qida sənayesi inkişaf etmişdir.
5. Əlvan metallurgiya sənayesi inkişaf etmişdir.
6. Əhalinin milli tərkibi rəngarəngdir.




A) 1, 3, 5 B) 1, 2, 5 C) 1, 2, 6
D) 4, 5, 6 E) 3, 4, 6

*Mövzu:* Azərbaycanın iqtisadi rayonları
***Sinif:*** 11
***İzah:*** Bakı və Gəncə-Daşkəsən iqtisadi rayonlarının fərqli xüsusiyyətləri Gəncə-Daşkəsən iqtisadi rayonunda filiz hasilatının olması, Bakı iqtisadi rayonunda neft-qaz sənayesinin inkişaf etməsi və əhalinin milli tərkibinin rəngarəng olmasıdır. Hər iki iqtisadi rayonda elektroenergetika, yüngül və qida, əlvan metallurgiya sənayesi inkişaf etdiyi üçün fərqləndirən cəhət kimi qeyd edilə bilməz.
***Doğru cavab:*** 1, 2, 6

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

**3.** Xəritə-sxemdə verilmiş rəqəmlərə uyğun gələn dağ silsilələrini müəyyən edin.




A) 1 – Qarabağ, 2 – Murovdağ, 3 – Yan silsilə, 4 – Zəngəzur
B) 1 – Şərqi Göycə, 2 – Bozdağ, 3 – Şahdağ, 4 – Zəngəzur
C) 1 – Murovdağ, 2 – Qarabağ, 3 – Sudur, 4 – Dərələyəz
D) 1 – Şahdağ, 2 – Qarabağ, 3 – Baş Qafqaz, 4 – Dərələyəz
E) 1 – Murovdağ, 2 – Qarabağ, 3 – Yan silsilə, 4 – Zəngəzur

*Mövzu:* Azərbaycanın relyefi
***Sinif:*** 9, 10
***İzah:*** Xəritə-sxemə əsasən 1-ci dağ silsiləsi Murovdağ, 2-ci Qarabağ, 3-cü Yan silsilə, 4-cü Zəngəzur silsiləsi olduğunu müəyyən etmək olar.
***Doğru cavab:*** 1 – Murovdağ, 2 – Qarabağ, 3 – Yan silsilə, 4 – Zəngəzur

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

**4.** 21 martda şaquli dirəyin kölgəsinə əsasən sxemin aid ola biləcəyi şəhərləri müəyyən edin.

1. Pekin 2. Keyptaun 3. Madrid
4. Santyaqo 5. Sidney 6. Nyu-York




A) 2, 4, 5    B) 1, 3, 6    C) 1, 2, 6
D) 2, 4, 6    E) 1, 3, 5

*Mövzu:* Yerin Günəş ətrafında hərəkəti və onun nəticələri
***Sinif:*** 9
***İzah:*** Sxemdən görünür ki, 21 martda axşam vaxtı Günəş şimal-qərbdə batır, şaquli dirəyin kölgəsi isə cənub-şərqə tərəf düşür. Buradan nəticə çıxarmaq olar ki, şaquli dirək ekvatordan cənubda – Keyptaun, Santyaqo, Sidney şəhərlərinin ərazisində yerləşə bilər. Verilmiş digər şəhərlər isə şimal yarımkürəsində yerləşdikləri üçün bu proses onların ərazisində müşahidə edilmir.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**
**5.** Uyğunluğu müəyyən edin.

| Rütubətlənmə əmsalı ≥ 1 | Rütubətlənmə əmsalı < 1 |
|---|---|
| I | II |

a. Göygöl ətrafı
b. Mil düzü
c. Böyük Qafqazda orta dağlıq ərazilər
d. Naxçıvanın Arazboyu düzənlikləri
e. Talış dağlarının ətəkləri
f. Acınohur-Ceyrançöl

A) I – a, c, e; II – b, d, f    B) I – a, c, d; II – b, e, f
C) I – b, d, e; II – a, c, f    D) I – b, c, f; II – a, d, e
E) I – a, d, f; II – b, c, e

*Mövzu:* Azərbaycanın iqlimi
***Sinif:*** 8, 10
***İzah:*** Rütubətlənmə əmsalının 1-dən böyük yaxud 1-ə bərabər olduğu ərazilər rütubətli iqlimə malik olan ərazilərdir və Göygöl ətrafı, Böyük Qafqazda orta dağlıq və Talış dağlarının ətəklərinə uyğun gəlir. Rütubətlənmə əmsalının 1-dən kiçik olduğu ərazilər isə isti və quru iqlim şəraitinə malik olan Mil düzü, Naxçıvanın Arazboyu düzənlikləri, Acınohur-Ceyrançölə uyğun gəlir.
***Doğru cavab:*** I – a, c, e; II – b, d, f

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**
**6.** Xəritə-sxemdə 1 və 2 rəqəmləri ilə göstərilən fiziki-coğrafi rayonların, 3 və 4 rəqəmləri ilə göstərilən fiziki-coğrafi rayonlardan fərqli əlamətləri:




1. Dağ meşə landşaftına malikdir.
2. Dağ silsilələri dövlət sərhədi boyu uzanır.
3. Hündürlüyü 4000 m-dən yüksək olan zirvələrə malikdir.
4. Yağıntıları bərabər paylanan mülayim-isti iqlim yarımtipinə malikdir.
5. Mezozoy yaşlı süxurlar geniş yayılmışdır.
6. Çaylarının qidalanmasında buzlaqların ərinti sularının da rolu vardır.

A) 1, 3, 5    B) 1, 2, 5    C) 2, 4, 6
D) 3, 4, 6    E) 3, 4, 5

*Mövzu:* Azərbaycanın fiziki-coğrafi rayonları
***Sinif:*** 10
***İzah:*** Xəritə-sxemdə təsvir edilən 1-ci fiziki rayon Qonaqkənd, 2-ci Zaqatala-Lahıc, 3-cü Gəncə, 4-cü isə Qarabağdır. Qonaqkənd və Zaqatala-Lahıc fiziki rayonlarının Gəncə və Qarabağ fiziki rayonlarından fərqi hündürlüyü 4000 m-dən hündür zirvələrin (Şahdağ, Bazardüzü və s.) olması, çaylarının qidalanmasında buzlaqların rolunun olması, yağıntıları bərabər paylanan mülayim-isti iqlim yarımtipinə malik olmasıdır. Verilən fiziki-coğrafi rayonların hər birində dağ meşə landşaftları, sərhəd boyu uzanan dağ silsilələri və mezozoy yaşlı süxurlar mövcuddur.
***Doğru cavab***: 3, 4, 6

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**
**7.** Uyğunluğu müəyyən edin.

| *Qidalanma mənbəyi*: | *Çaylar*: |
|---|---|
| 1. Qar və buzlaqların ərinti suları<br>2. Yeraltı sular<br>3. Yağış suları | a. Samur<br>b. Ağsuçay<br>c. Araz<br>d. Viləşçay<br>e. Qusarçay |

A) 1 – a, e; 2 – c; 3 – b, d    B) 1 – e; 2 – b, c; 3 – a, d
C) 1 – a, b; 2 – c, d; 3 – e    D) 1 – b, d; 2 – a, c; 3 – e
E) 1 – a, c; 2 – e; 3 – b, d

*Mövzu:* Azərbaycanın quru suları
**Sinif:** 10
***İzah:*** Qar və buzlaqların ərinti suları ilə qidalanan çaylar Samur və Qusarçay, yeraltı sularla Araz, yağış suları ilə qidalanan çaylar isə Ağsuçay və Viləşçaydır.
***Doğru cavab:*** 1 – a, e; 2 – c; 3 – b, d

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

**8.** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Ekvatorial meşələr | a. Koreya yarımadası |
| 2. Savanna və seyrək meşələr | b. Sumatra adası |
| 3. Dəyişkən rütubətli meşələr | c. Arnemlend yarımadası |
| | d. Tayvan adası |
| | e. Kalimantan adası |

A) 1 – c; 2 – a, b; 3 – d, e B) 1 – b, e; 2 – c; 3 – a, d
C) 1 – a, d; 2 – b, e; 3 – c D) 1 – b, e; 2 – a, d; 3 – c
E) 1 – a, e; 2 – c; 3 – b, d

***Mövzu:*** Biosfer. Təbii zonalar və onların yayılması
***Sinif:*** 8, 9
***İzah:*** Ekvatorial meşələr Sumatra və Kalimantan adalarında, Savanna və seyrək meşələr Arnemlend yarımadasında, dəyişkən rütubətli meşələr isə Koreya yarımadası və Tayvan adasında yayılıb.
***Doğru cavab:*** 1 – b, e; 2 – c; 3 – a, d

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

**9.** Mis hasilatı, qəhvə istehsalı və balıqçılığın inkişaf etdiyi müvafiq Latın Amerikası ölkələri:
A) Peru, Kolumbiya, Boliviya
B) Kuba, Qayana, Paraqvay
C) Kuba, Venesuela, Boliviya
D) Ekvador, Kolumbiya, Paraqvay
E) Çili, Braziliya, Peru

***Mövzu:*** Təbii ehtiyatlar və onlardan istifadə
***Sinif:*** 9, 10
***İzah:*** Latın Amerikası ölkələrində mis hasilatı Çilidə, qəhvə istehsalı Braziliyada, balıqçılıq isə Peruda inkişaf edib. Boliviya və Paraqvay ölkələri materikdaxili mövqeyə malik olduğu üçün balıqçılıq inkişaf etməyib.
***Doğru cavab:*** Çili, Braziliya, Peru

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

**10.** Uyğunluğu müəyyən edin.

| *Magistral yollar* | *Materiklər* |
|---|---|
| 1. Resifi-Lima | a. Afrika |
| 2. Laqos-Mombasa | b. Cənubi Amerika |
| 3. Sidney -Pert | c. Şimali Amerika |
| | d. Avrasiya |
| | e. Avstraliya |

A) 1 – d; 2 – a; 3 – c B) 1 – b; 2 – a; 3 – e
C) 1 – b; 2 – e; 3 – d D) 1 – a; 2 – c; 3 – b
E) 1 – c; 2 – d, 3 – e

***Mövzu:*** Dünya nəqliyyatı
***Sinif:*** **9,** 10
***İzah:*** Resifi-Lima magistralı Cənubi Amerikada Braziliya və Peru arasında, Laqos-Mombasa Afrikada Nigeriya və Keniya arasında, Sidney -Pert magistralı isə Avstraliyadadır.
***Doğru cavab:*** 1 – b; 2 – a; 3 – e

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

**11.** Doğru sıraları müəyyən edin.

| *Sıra* | *Təsərrüfat sahəsi* | *Yerləşməsinə təsir edən əsas amil* | *Aid olduğu sektor* |
|---|---|---|---|
| 1 | boksit hasilatı | xammal | I |
| 2 | konserv sənayesi | xammal | II |
| 3 | bank xidməti | nəqliyyat | III |
| 4 | mədən kimyası | xammal | IV |
| 5 | alüminium istehsalı | elektrik enerjisi | I |
| 6 | qənnadı (şirniyyat) | istehlak | II |

A) 3, 4, 5 B) 1, 2, 6 C) 1, 3, 6
D) 2, 3, 4 E) 1, 2, 5

***Mövzu:*** Dünya iqtisadiyyatının ümumi coğrafi səciyyəsi
***Sinif:*** 9
**İzah:** Boksit hasilatı xammala meyl edir və I sektora aiddir. Konserv sənayesi xammala meyl edir və II sektora aiddir. Qənnadı (şirniyyat) istehlaka meyl edir və II sektora aiddir. Bank xidmətinin yerləşməsində nəqliyyat amili əsas deyil, mədən kimyası IV sektora aid deyil, alüminium istehsalı I deyil II sektora aiddir.
***Doğru cavab:*** 1, 2, 6

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

**12.** Xərita-sxemdə ştrixlənmiş ölkə üçün doğru fikirləri müəyyən edin.




1. İqliminə soyuq okean cərəyanı təsir edir.
2. Bütövlükdə tropik iqlim qurşağında yerləşir.
3. Aid olduğu materikin ucqar nöqtəsi burada yerləşir.
4. Materikin ən hündür zirvəsi burada yerləşir.
5. Materik və okean tipli litosfer tavalarının toqquşma sərhədində yerləşir.
6. Tropik işıqlanma qurşağında yerləşir.

A) 2, 4, 6 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 3, 6

***Mövzu:*** Dünyanın siyasi xəritəsi
**Sinif:** 7, 8, 9, 10

***İzah***: Xəritə-sxemdə təsvir edilən ölkə Somalidir və Afrika materikində yerləşir. Somalinin iqliminə soyuq Somali cərəyanı təsir edir, Afrikanın ucqar şərq nöqtəsi –Ras-Həfun bu ölkənin ərazisindədir. Ölkənin ərazisi Tropik xətlər arasında yerləşdiyi üçün tropik işıqlanma qurşağında yerləşir. Somali bütövlükdə tropik deyil, subekvatorial iqlimdə yerləşir. Afrika materikinin ən hündür zirvəsi Kilimancaro Somalidə deyil Tanzaniyadadır. Somali materik və okean litosfer tavalarının toqquşma sərhədində yerləşmir.
***Doğru cavab:*** 1, 3, 6

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

**13.** Yayı isti və quru, qışı isə mülayim və rütubətli olan iqlim tipinə malik ərazilərdə becərilən əsas kənd təsərrüfatı bitkiləri:

1. Kakao 2. Kətan
3. Şəkər qamışı 4. Zeytun
5. Üzüm 6. Sitrus bitkiləri

A) 1, 3, 5 B) 1, 4, 6 C) 2, 3, 5
D) 4, 5, 6 E) 2, 4, 6

***Mövzu:*** Dünyanın kənd təsərrüfatı
***Sinif:*** 9, 10
***İzah:*** Yayı isti və quru, qışı mülayim və rütubətli olan iqlim tipi subtropik iqlim qurşağının Aralıq dənizi iqlim tipidir. Burada üzüm, zeytun və sitrus bitkiləri becərilir. Kakao və şəkər qamışı, əsasən, subekvatorial, rütubətli tropik və musson zonalarda, kətan isə mülayim iqlim qurşağı daxilində becərilir.
***Doğru cavab:*** 4, 5, 6

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

**14.** Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




1. Hündürlüyü nisbətən azdır.
2. Vulkan külləri və lavaları çox geniş ərazini əhatə edir.
3. Əsasən aktiv-seysmik zonalarda daha çox rast gəlinir.
4. Əsasən neft-qazlı sahələrdə yayılmışdır.
5. Relyef formalarının yaranmasına təsir göstərir.
6. Ocağı daha dərində yerləşir.

A) I – 3, 6; II – 4, 5; III – 1, 2
B) I – 1, 6; II – 2, 4; III – 3, 5
C) I – 2, 5; II – 1, 4; III – 3, 6
D) I – 2, 6; II – 1, 4; III – 3, 5
E) I – 2, 6; II – 1, 5; III – 3, 4

***Mövzu:*** Litosfer, Yerin daxili quruluşu
***Sinif:*** 10
***İzah:*** Maqmatik vulkanların yayıldığı ərazilərdə vulkan külləri və lavaları geniş yayılır, maqma ocağı daha dərində yerləşir. Palçıq vulkanlarının hündürlüyü nisbətən az olur, neftli-qazlı sahələrdə daha çox yayılır. Həm maqmatik həm də palçıq vulkanları əsasən aktiv-seysmik zonalarda daha çox olur, relyef formalarının yaranmasına təsir göstərir.
***Doğru cavab:*** I – 2, 6; II – 1, 4; III – 3, 5

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

**15.** Doğru sıraları müəyyən edin.

1. Hind-Qanq ovalığı
2. Braziliya yaylası
3. Orta Sibir yaylası
4. Mərkəzi düzənliklər
5. Efiopiya yaylası

| *№* | *Ərazilər* | *Oxşar xüsusiyyət* | *Fərqli xüsusiyyət* |
|---|---|---|---|
| I | 1, 3 | Yerləşdiyi materik Şimal yarımkürəsində bütün iqlim qurşaqlarına malikdir. | Daimi donuşluq zonasında yerləşir. |
| II | 2, 4 | Şimal və qərb yarımkürələrində yerləşir. | Buzlaq relyef formaları üstünlük təşkil edir. |
| III | 1, 4 | Aid olduğu materiklər üç işıqlanma qurşağında yerləşir. | Meşə-çöl təbii zonası yayılmışdır. |
| IV | 3, 5 | Platformanın enən sahələri olub, seysmik cəhətdən fəaldır. | Ərazidən axan çayların eroziya bazisi Hind okeanıdır. |
| V | 2, 5 | Akkumulyasiya prosesləri üstünlük təşkil edir. | Bütövlükdə ekvatordan şimalda və Qrinviç meridianından şərqdə yerləşir. |

A) I, III B) III, IV C) II, IV D) II, V E) I, V

***Mövzu:*** Materiklərin coğrafiyası
***Sinif:*** 7, 8, 9, 10
***İzah:*** Hind-Qanq ovalığı və Orta Sibir yaylası Avrasiya materikindədir. *Oxşar cəhət:* Yerləşdikləri materik şimal yarımkürəsində olan bütün iqlim qurşaqlarında yerləşir. *Fərqli xüsusiyyət:* Hind-Qanq ovalığı isti və rütubətli ərazidə, Orta Sibir yaylası isə daimi donuşluq zonasında yerləşir.
Hind-Qanq ovalığı Avrasiya materikində, Mərkəzi düzənliklər isə Şimali Amerikada yerləşir. *Oxşar xüsusiyyət:* Avrasiya və Şimali Amerikanın üç işıqlanma qurşağında yerləşməsidir. *Fərqli xüsusiyyət:* Hind-Qanq ovalığında meşə-çöl təbii zonası deyil, savannalar və dəyişkən rütubətli meşələr təbii zonası yayılıb.
***Doğru cavab:*** I, III

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

**16.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| | *Filiz faydalı qazıntı yataqları* | *Qeyri-filiz faydalı qazıntı yataqları* | *Yanar faydalı qazıntı yataqları* |
|---|---|---|---|
| 1 | Zəylik | Göydərə | Ağdağ |
| 2 | Oğuz | Alov | Duzdağ |
| 3 | Narzanlı | Hökməli | Şahdəniz |
| 4 | Levçay | İnam | Qoşa |
| 5 | İpək | Daşsalahlı | Əşrəfi |
| 6 | Mazımçay | Ağcakənd | Yasamal |

A) 3, 5, 6 B) 3, 4, 5 C) 2, 4, 6
D) 1, 2, 6 E) 1, 3, 5

***Mövzu:*** Azərbaycanın geoloji quruluşu və faydalı qazıntıları
***Sinif:*** 7, 10
***İzah:*** Narzanlı (civə) filiz, Hökməli (kvars qumu) qeyri-filiz, Şahdəniz (təbii qaz) yanar,
İpək (xromit) filiz, Daşsalahlı (bentonit gili) qeyri-filiz, Əşrəfi (neft) yanar,
Mazımçay (polimetal) filiz, Ağcakənd (gips) qeyri-filiz, Yasamal (neft) yanar maddələrə aiddir. Ağdağ və Qoşa yanar faydalı qazıntı yatağı deyil, Oğuz isə filiz faydalı qazıntı yatağı deyil.
***Doğru cavab:*** 3, 5, 6

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

**17.** Kür çayının hər iki sahilində yerləşən, elektroenergetika üzrə ixtisaslaşmış, inzibati rayon mərkəzi olmayan şəhəri müəyyən edin.

A) Salyan B) Yevlax C) Mingəçevir
D) Şəmkir E) Gəncə

***Mövzu:*** Azərbaycanın sənayesi
***Sinif:*** 11
***İzah:*** Kür çayının hər iki sahilində yerləşən, elektroenergetika sənayesi üzrə ixtisaslaşan, inzibati rayon mərkəzi olmayan şəhər Mingəçevir şəhəridir. Yevlax, Salyan və Şəmkir şəhəri inzibati rayon mərkəzidir. Gəncə şəhəri isə Kür çayının sahilində yerləşmir.
***Doğru cavab:*** Mingəçevir

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

**18.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Skandinaviya yarımadası həm mülayim – dəniz, həm də mülayim – kontinental iqlim tipində yerləşir.
2. Ədən körfəzi iki yarımadanın sahillərini yuyur.
3. Lena çayının mənsəbində gecə-gündüzün adi növbələşməsi pozulur.
4. Atlantik okean temperaturuna görə ikinci ən isti okeandır.
5. Kiçik Asiya yarımadasının çayları yalnız bir okean hövzəsinə aiddir.
6. Baltik dənizinin səthində buxarlanma qabiliyyəti buxarlanmadan çoxdur.

A) 2, 3, 6 B) 2, 3, 4 C) 1, 5, 6
D) 4, 5, 6 E) 1, 3, 5

***Mövzu:*** Dünya okeanı və onun hissələri
***Sinif:*** 8, 9, 10
***İzah:*** Temperaturuna görə 2-ci ən isti okean Atlantik deyil, Hind okeanıdır, Kiçik Asiya yarımadasından axan çaylar bir deyil iki okean (Atlantik və Hind okeanı) və daxili axarsız hövzəyə aiddir, Baltik dənizinin səthində buxarlanma qabiliyyəti buxarlanmadan çox deyildir. Skandinaviya yarımadasında həm mülayim dəniz, həm də mülayim-kontinental iqlim tipləri var. Ədən körfəzi Somali və Ərəbistan yarımadalarının sahilini yuyur, Lena çayının mənsəbi qütb işıqlanma qurşağında yerləşdiyi üçün gecə və gündüzün adi növbələşməsi pozulur.
***Doğru cavab:*** 4, 5, 6

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

**19.** Azərbaycanın geosiyasi rolunun artmasına təsir edən amillər:

1. Azərbaycanın türk dünyasında siyasi və iqtisadi əlaqələndirici rolu
2. Həmsərhəd olduğu ölkələrlə ticarət əlaqələri
3. İqtisadi və hərbi potensialı
4. Xəzərin səviyyəsinin enməsi hesabına sahəsinin genişlənməsi
5. 2020-ci ildə baş vermiş Vətən müharibəsində Azərbaycanın qələbəsi
6. Azərbaycanın daxil olduğu istilik, işıqlanma, iqlim qurşaqları

A) 1, 2, 6 B) 1, 3, 5 C) 1, 3, 6
D) 2, 4, 6 E) 3, 4, 5

***Mövzu:*** Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri
***Sinif:*** 10
***İzah:*** Azərbaycanın geosiyasi mövqeyinə təsir edən əsas amillər onun türk dünyasında siyasi və iqtisadi əlaqələndirici rolu, iqtisadi və hərbi potensialı, 2020-ci ildə Vətən müharibəsində qələbə qazanmasıdır. Həmsərhəd ölkələrlə ticarət əlaqələri iqtisadi rola, Xəzər dənizinin səviyyəsinin azalması hesabına sahəsinin artması, istilik, işıqlanma və iqlim qurşaqlarında yerləşməsi isə fiziki coğrafi mövqeyinə aiddir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

**20.** Kəsmə hündürlüyü 10 m olan sxemdəki horizontallara əsasən *A* nöqtəsinin mütləq hündürlüyünü hesablayın.




A) 60 m B) 30 m C) 50 m D) 40 m E) 20 m

***Mövzu:*** Yer səthinin relyefi və ondan istifadə
***Sinif:*** 9
***İzah:*** Verilən sxem çökəkliyi əks etdirir. A nöqtəsi hündürlüyü 40 m olan horizontaldan bir kəsmə

hündürlüyü qədər çox olduğu üçün mütləq hündürlüyü 50 m-dir. 40+10=50 m

***Doğru cavab:*** 50

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

**21.** Verilən yüksəklik qurşaqlarına müvafiq gələn təbii vilayətlərdə yerləşən milli parkları müəyyən edin.

**A.**




**B.**




**C.**




I. Hirkan
II. Şahdağ
III. Samur-Yalama
IV. Zəngəzur
V. Göygöl
VI. Altıağac

A) A – II; B – V; C – III
B) A – I; B – II; C – IV
C) A – V; B – II; C – VI
D) A – VI; B – IV; C – III
E) A – V; B – I; C – IV

***Mövzu:*** Azərbaycanın landşaftları və onun yayılması
***Sinif:*** 9, 10
***İzah:*** Landşaft tiplərinin şaquli paylanmasına əsasən A sxeminin Kiçik Qafqaz, B sxeminin Lənkəran, C sxeminin Orta Araz təbii vilayəti olduğunu müəyyən etmək olur. Kiçik Qafqaz təbii vilayətində Göygöl milli parkı, Lənkəran təbii vilayətində Hirkan milli parkı, Orta Araz təbii vilayətində Zəngəzur milli parkı yerləşir. Şahdağ, Samur-Yalama və Altıağac milli parkları Böyük Qafqaz təbii vilayətində yerləşir.
***Doğru cavab:*** A – V; B – I; C – IV

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

**22.** 1994-cü ildə ölkə əhalisinin sayı 7,5 mln. nəfər olmuşdur. 1994-2004-cü illər üçün əhalinin orta illik artımı 1,5% olmuşdursa, 2004-cü ildə ölkə əhalisinin sayını hesablayın.

A) 8,125 mln nəfər
B) 8 mln nəfər
C) 8,625 mln nəfər
D) 9,25 mln nəfər
E) 9 mln nəfər

***Mövzu:*** Dünya əhalisi
***Sinif:*** 8
***İzah:*** Ölkə əhalisinin sayı 7,5 mln. nəfər, illik əhali artımı 1,5% olarsa bir illik artım hesablanır:
7,5 mln.---100%
x---1,5%
x=112 500 nəfər (bir illik əhali artımı)
1994-2004 arasında 10 il olduğu üçün 10 illik əhali artımı hesablanır:
112 500x10=1 125 000 nəfər
7,5 mln.+ 1,125 mln. = 8,625 mln. nəfər (10 il ərzində əhali artımı)
***Doğru cavab:*** 8,625 mln.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

**23.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| № | *Yarımada* | *Sahillərini yuyan dəniz* | *Yerləşdiyi iqlim qurşağı* |
|---|---|---|---|
| 1. | Skandinaviya | Baltik | mülayim |
| 2. | Kamçatka | Berinq | arktik |
| 3. | Somali | Qırmızı | tropik |
| 4. | Kiçik Asiya | Aralıq | subtropik |
| 5. | Hindistan | Ərəbistan | subekvatorial |
| 6. | Florida | Sarqas | subekvatorial |

***Mövzu:*** Dünyanın iqlim qurşaqları
***Sinif:*** 7, 9, 10
***İzah:*** Skandinaviya yarımadasını Baltik dənizi suları yuyur, mülayim iqlim qurşağında yerləşir. Kiçik Asiya yarımadasını Aralıq dənizi suları yuyur, subtropik iqlim qurşağında yerləşir. Hindistan yarımadasını Ərəbistan dənizi suları yuyur, subekvatorial iqlim qurşağında yerləşir. Kamçatka yarımadası arktik deyil, mülayim iqlim qurşağında yerləşir. Somali yarımadasının sahillərini Qırmızı dənizin suları yumur. Florida yarımadası subekvatorial deyil, tropik və subtropik iqlim qurşaqlarında yerləşir.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

**24.** Səbəb-nəticə əlaqələrinin doğru verildiyi sıraları müəyyən edin.

| *Sıra* | *Səbəb* | *Nəticə* |
|---|---|---|
| 1 | Türkiyə litosfer tavalarının sərhədində yerləşir. | Ölkədə cavan dağlar üstünlük təşkil edir. |
| 2 | Çuvaşiya əsasən dağlıq ərazidə yerləşir. | İri şorsulu göllər çoxdur. |
| 3 | Özbəkistanın Dünya okeanına çıxışı yoxdur. | Beynəlxalq yükdaşımalarında dəmiryol və avtomobil nəqliyyatının payı çoxdur. |
| 4 | Turan ovalığında maqmatik süxurlar üstünlük təşkil edir. | Türkmənistan və Özbəkistan zəngin neft və qaz yataqlarına malikdir. |
| 5 | Mərkəzi Asiyanın türk dövlətlərinin iqlimi isti və rütubətlidir. | İrriqasiya zəif inkişaf edib. |

**Mövzu**: Türk dünyasının ümumi coğrafi səciyyəsi
**Sinif:** 9, 10, 11
***İzah:*** Türkiyə litosfer tavalarının toqquşma sərhədində yerləşdiyi üçün ölkədə cavan dağlar (Pont, Tavr) üstünlük təşkil edir. Özbəkistanın Dünya okeanına çıxışının olmadığı üçün beynəlxalq yükdaşımalarında dəmiryol və avtomobil nəqliyyatının digər nəqliyyat növlərinə nəzərən payı çoxdur. Çuvaşiya dağlıq ərazidə deyil, Şərqi Avropa düzənliyində yerləşir, Turan ovalığında maqmatik yox çökmə süxurlar üstündür. Mərkəzi Asiyanın türk dövlətlərinin iqlimi əsasən quraqdır.
***Doğru cavab:*** 1, 3

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**
**25.** Xəritə-sxemdə verilmiş ölkə üçün doğru fikirləri müəyyən edin.




1. Nəqliyyatın bütün növləri yüksək inkişaf etmişdir.
2. Marikultur təsərrüfat inkişaf etmişdir.
3. III və IV sektorların ÜDM-də payı çoxdur.
4. Əhali təzələnməsinin I tipinə keçmişdir.
5. Əsas immiqrasiya mərkəzlərindəndir.
6. Ərazisində Z-Park və Kansai texnoparkları yerləşir.

***Mövzu:*** Dünya ölkələrinin inkişaf xüsusiyyətləri
***Sinif:*** 9, 10, 11
***İzah:*** Xəritə-sxemdə təsvir edilmiş ölkə Yaponiyadır. Yaponiyada marikultur təsərrüfat inkişaf etmişdir. ÜDM-də III və IV sektorların payı çoxdur, əhali təzələnməsinin II tipindən I tipinə keçmişdir. Yaponiyada çay və boru kəməri nəqliyyatı yüksək inkişaf etməmişdir, immiqrasiya mərkəzi deyil, Z-Park texnoparkı isə Yaponiyada deyil Çinin ərazisində yerləşir.
***Doğru cavab:*** 2, 3, 4

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**
**26.** 30ºC temperatura malik 1m$^3$ havanın 10ºC soyuması nəticəsində havadan 2,5 qram su buxarı ayrılmışdır. Havanın soyumasından əvvəlki nisbi rütubətliyin neçə faiz olduğunu hesablayın. (Havanın doyma həddi 30ºC temperaturda 30 qram, 20ºC temperaturda isə 17 qramdır)

***Mövzu:*** Atmosfer.Havanın elementləri
***Sinif:*** 10
***İzah:*** Havanın temperaturu 10ºC soyuyaraq 30ºC -dən 20ºC-yə düşmüşdür. 20ºC temperaturda 1 m$^3$ havanın doyması üçün 17 qram su buxarı tələb edilir. Əgər 2,5 qram su buxarı ayrılıbsa, deməkr 30ºC –də 17+2,5= 19,5 qram su buxarı var idi. Havanın soyumasından əvvəlki nisbi rütubətliyi aşağıdakı kimi hesablanır:
30 ---100%
19,5---x
x=65%
***Doğru cavab:*** 65

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**
**27.** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Nil çayı | a. Tropik səhradan keçir. |
| 2. Konqo çayı | b. Hind okeanı hövzəsinə aiddir. |
| 3. Limpopo çayı | c. Sutoplayıcı hövzəsi tamamilə tropik işıqlanma qurşağında yerləşir. |
| | d. Mənsəbi daxili dənizdir. |
| | e. Üzərində Livinqston şəlaləsi yerləşir. |

***Mövzu:*** Quru suları
***Sinif:*** 9, 10
***İzah:*** Nil çayı tropik səhradan keçir, mənsəbi daxili dənizdir (Aralıq), Konqo çayının sutoplayıcı hövzəsi tamamilə tropik işıqlanma qurşağındadır, üzərində Livinqston şəlaləsi var, Limpopo çayı Hind okeanı hövzəsinə aiddir.
***Doğru cavab:*** 1-a, d; 2-c,e; 3-b

***Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28 – 30 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

Kənd təsərrüfatı ekspertləri qida sənayesində əsas yeri tutan buğdaya olan tələbatı ödəmək məqsədilə fərqli materiklərdə və fərqli iqlim qurşaqlarında yerləşən iki ərazini tədqiq etdilər.

***I ərazi*** materikin mərkəz hissəsində yerləşir və platformaya uyğun gəlir. Qrinviç meridianından qərbdə yerləşib, hamar relyefə malik olması ilə səciyyələnir. Yerləşdiyi ölkə yüksək iqtisadi inkişaf səviyyəsinə malikdir. Bu ölkənin iki ölkə ilə quru sərhədi vardır.

***II ərazi*** materikin cənub-şərqində yerləşir və platformaya uyğun gəlir. Qrinviç meridianından qərbdə yerləşib, hamar relyefə malik olması ilə səciyyələnir və “G-20”-yə aid olan İEOÖ ərazisindədir.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**
**28.** Mətnə əsasən I və II ərazilərə xəritə-sxemdə uyğun gələn rəqəmləri, onların yerləşdiyi platforma və yarımkürələri müəyyən edib cədvəldə yazın.

***Mövzu:*** Təbii zonalar və onların təsərrüfat əhəmiyyəti
***Sinif:*** 9, 10

*İzah:* Ekspertlərin tədqiq etdiyi I ərazi ABŞ-ın preriləri, II tədqiqatçının tədqiq etdiyi ərazi isə Argentinanın pampalarıdır. I ərazi Şimali Amerika platformasında, şimal və qərb yarımkürəsində yerləşir. II ərazi Cənubi Amerika platformasında cənub və qərb yarımkürəsində yerləşir.

***Doğru cavab:***

| **Ərazilərə xəritə-sxemdə uyğun gələn rəqəmlər** | **Ərazilərin yerləşdiyi platformalar** | **Ərazilərin yerləşdiyi yarımkürələr** |
|---|---|---|
| I- 4<br>II- 5<br><br> | I- Şimali Amerika<br>II-Cənubi Amerika | I- şimal, qərb<br>II- cənub, qərb |

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

**29.** Mətnə əsasən I və II əraziyə aid olan xüsusiyyətləri müəyyən edib cədvəldə yazın.

*Mövzu:* Təbii zonalar və onların təsərrüfat əhəmiyyəti

*Sinif:* 9, 10

*İzah:* I ərazi mülayim iqlim qurşağında, çöl və meşə-çöl təbii zonasında yerləşir, torpağı qara, şabalıdıdır. II ərazi subtropik iqlim qurşağında, çöl, meşə-çöl təbii zonasında yerləşir, torpağı qırmızı-qaradır.

***Doğru cavab:***

| **Ərazilərin əsasən yerləşdikləri iqlim qurşağı (1 nümunə)** | **Ərazilərdə əsasən yayılan torpaq tipi (1 nümunə)** | **Ərazilərdə formalaşan təbii zona** |
|---|---|---|
| I - mülayim<br>II-subtropik | I qara, şabalıdı<br>II qırmızı-qara | I –çöl, meşə-çöl, preri<br>II –çöl, meşə-çöl, pampa |

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

**30.** Mətnə əsasən I və II ərazilərin yerləşdiyi ölkələri, bu ölkələrin buğda ixracatında aparıcı mövqeyinin səbəbini və bu məhsulun ən çox ixrac olunduğu qitə və ya materiki müəyyən edib cədvəldə yazın.

*Mövzu:* Beynəlxalq iqtisadi əlaqələr

*Sinif:* 10, 11

*İzah:* Mətnə əsasən müəyyən etmək olar ki, I ərazi ABŞ, II ərazi isə Argentinadır. Bu ərazilər hamar relyef, torpaq və iqlim şəraiti əlverişlidir. kənd təsərrüfatının intensiv inkişafı, əmtəəlik istiqamətli kənd təsərrüfatı, ixrac istiqamətli kənd təsərrüfat inkişaf etdiyi üçün bu ölkələr ölkələrin buğda ixracatında aparıcı mövqeyə malikdir. ABŞ və Argentina buğdanı Avrasiya, Afrika, Cənubi Amerikaya ixrac edir.

***Doğru cavab:***

| **Ərazilərin yerləşdiyi ölkələr** | **Müəyyən etdiyiniz ölkələrin buğda ixracatında aparıcı mövqeyinin səbəbləri (2 nümunə)** | **Bu buğdanın ən çox ixrac olunduğu qitə və ya materik (2 nümunə)** |
|---|---|---|
| I- ABŞ<br>II -Argentina | 1.təbii şəraitə (iqlim, torpaq, hamar relyef) malik olması<br>2.kənd təsərrüfatının intensiv inkişaf etməsi<br>3.əmtəəlik istiqamətli kənd təsərrüfatının inkişaf etməsi<br>4.ixrac istiqamətli kənd təsərrüfatının inkişaf etməsi. | Avropa, Asiya, Afrika, Avrasiya, Cənubi Amerika |